AAC

## “AAC” MMC-NİN SƏTƏMM ÜZRƏ SİYASƏTİ

Təsdiq edirəm;
“AAC” MMC-nin Direktoru
__________ Zahid Şahbazov
“30” Sentyabr” 2023-cü il

“AAC” MMC müasir tikinti materiallarının istehsalını və satışını həyata keçirir. “AAC” MMC öz fəaliyyətində işçilərinin təhlükəsizliyini, onların sağlam və təhlükəsiz iş şəraitində işləməsini, istehsalatda baş verə biləcək qəzaların, hadisələrin və xəsarətlərin qarşısının alınması və ya təsirinin minimuma endirilməsi istiqamətində işlərin aparılmasını vacib sayır.

Bununla əlaqədar olaraq “AAC” MMC-nin rəhbərliyi öz fəaliyyətində aşağıdakı prinsipləri əsas götürür.

- İSO 45001:2018 Sağlamlıq, Əməyin Təhlükəsizliyi İdarəetmə Sisteminin tətbiqində standartın bütün tələblərinin icra olunmasını və sənədləşdirilmiş məlumatların saxlanmasını təmin etmək;
- Sağlamlıq, Əməyin Təhlükəsizliyi İdarəetmə Sisteminin tətbiqi üçün lazımi resursları müəyyən etmək və təmin etmək;
- Sağlamlıq, Əməyin Təhlükəsizliyi İdarəetmə Sisteminin tələblərinin təşkilatın biznes proseslərinə inteqrə edilməsini təmin etmək;
- Sağlamlıq, Əməyin Təhlükəsizliyi İdarəetmə Sistemi üzrə siyasətin və məqsədlərin şirkətin kontekstinə və strateji istiqamətinə uyğun olmasını təmin etmək;
- İstehsalatda baş verə biləcək qəzaların, hadisələrin və xəsarətlərin qarşısını vaxtında almaq və bu cür halların baş verməsinin minimuma endirilməsi istiqamətdə lazımı tədbirlər görmək;
- Azərbaycan Respublikası daxilində qüvvədə olan, sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasını və işçilərin sağlamlığının qorunmasını özündə əks etdirən bütün Qanunverici və normativ-texniki sənədlərin, eləcə də bu sahədə Beynəlxalq Standartların və bütün digər maraqlı tərəflərin tələblərinə riayət etmək;
- Bütün fəaliyyət proseslərində olan riskləri mütəmadi şəkildə müəyyən etmək, qiymətləndirmək, onların potensial təsirlərini minimuma endirmək və daim nəzarətdə saxlamaq;
- Şirkətdə tətbiq olunan Sağlamlıq, Əməyin Təhlükəsizliyinin İdarəolunması Sistemini daim işlək vəziyyətdə saxlamaq, yaxşılaşdırmaq və təkmilləşdirmək, onun effektivliyini və səmərəliliyini artırmaq;
- Davamlı olaraq SƏTƏMM üzrə məqsədlər və hədəflər müəyyənləşdirmək, bu məqsədlərin və hədəflərin həyata keçirilməsini və onlara nail olunmasını təmin etmək;
- İşçilərin əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarına tam və düzgün əməl etmələrini təmin etmək üçün, onları vaxtaşırı olaraq təlimatlandırmaq, bu sahədə onların bilik və bacarıq səviyyəsini daima artırmaq və mütəmadi olaraq işçilərin biliklərini yoxlamaq;
- İş mühitinin, infrastrukturun və iş şəraitinin daima yaxşılaşdırılması və inkişaf etdirilməsi istiqamətində işlər görmək;
- SƏTƏMM üzrə bütün proseslərdə işçilərin iştirakını və işçilər ilə məsləhətləşmələri təşkil etmək;

“AAC” MMC –nin Rəhbər heyəti SƏTƏMM üzrə Siyasətin bütün işçi heyətin nəzərinə çatdırılması və bütün əməkdaşlar tərəfindən onun prinsiplərinə əməl edilməsinin təmin olunmasını öz üzərilərinə götürürlər